# Azərbaycan qadını: tarixilik və müasirlik

## ŞƏRƏFLİ AD VƏ DÜRÜST ƏMƏL

***Ana!Ana!… o adın qarşısında bir qul tək***
***Həmişə səcdədə olmaq mənə fəxarətdir.***
***Onun əliylə bəla bəhrinə yuvarlansam,***
***Yenə xəyal edərəm bəzmi-istirahətdir.***

Şifahi xalq yaradıcılığımızdan tutmuş yazılı ədəbiyyatımıza qədər bütün ədəbi nümunələrdə ana məhəbbəti, qadın qüdrəti özünün geniş poetik əksini tapmışdır. Böyük Cəfər Cabbarlının "Ana" şeiri isə bu nümunələrdən biridir.

Hər bir ailə kiçik bir dövlətə bənzəyir. Onun da öz qanunları, adət-ənənəsi, yaşam tərzi, özəl mühiti var. Dünyada mövcud olan bu təbii birliklərin içərisində Azərbaycan ailəsinin özünəməxsusluğu, yüksək mənəvi dəyərlərə bağlılığı ilə seçilir.

Aliliyin zirvəsində dayanan qadın haqqında Məhəmməd (s.) peyğəmbərin "Cənnət anaların ayaqları altındadır" fikri çoxmənalı mətləblərdən xəbər verir. Bəlkə də, buna görə Hüseyn Cavid "qadın Günəş, cocuq Ay"-dır, – deyirdi.

Bu gün hürriyyətinə sahib çıxmış Azərbaycan qadını həm öz ailəsində, həm də həyatın müxtəlif sahələrində fədakarcasına çalışmaqdadır. Ümummilli lider Heydər Əliyev deyirdi: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi, millətinə, torpağına olan hədsiz məhəbbəti, gözəlliyi və Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır". Abır və həya, namus və qeyrət Azərbaycan ailəsinin ülviliyini, üstünlüyünü şərtləndirən, müqəddəsliyinə təminat verən amillərdəndir. Azərbaycanın çox cəsur, qeyrətli, qəhrəman, diplomat, savadlı, duyumlu xanımları olub. Xanların, bəylərin əksəriyyətinin xanımı geniş dünyagörüşünə malik savadlı, hazırcavab, mərd qadınlar kimi tanınıblar. Onların adlarını yazsaq, uzun bir siyahı əmələ gələr.

Doğrudur, bütün əhalinin kütləvi surətdə savadlanması sovet dövründə həyata keçirilib. Amma o illərin də çox zərbəsi Azərbaycan ailəsini acı rüzgarın ixtiyarına verib. Ölkəni bürümüş repressiyaların caynağına təkcə ayrı-ayrı şəxsiyyətlər deyil, neçə-neçə ailə bütövlükdə ilişib. Çoxunun taleyindən indi də xəbər-ətər yoxdur. Azərbaycan ailəsi gah sovet quruluşunun repressiyasına məruz qalıb, gah da ermənilərin törətdiyi qanlı münaqişələrin qurbanına çevrilib. Amma buna baxmayaraq, ayrı-ayrı şəxsiyyətlərin, millətini ürəkdən sevən fədailərin hesabına Azərbaycan ailəsi yaşayıb, var olub, cəmiyyət üçün ləyaqətli övladlar tərbiyə edərək böyüdüb.

Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövrdə Azərbaycan ailəsinin firavan yaşamasına, gənclərin ali təhsil almasına, qadınların müxtəlif vəzifələrə irəli çəkilməsinə daha çox diqqət yetirildi. Ailə başçısına, xüsusilə də analara göstərilən bu qayğı səbəbsiz deyildi. Heydər Əliyevin uzaqgörən siyasətinin ifadəsi olaraq Azərbaycan ailəsinin maddi və mənəvi problemlərinin bütün tərəflərinə nəzər salınırdı.

Ötən əsrin sonlarında ermənilərin başladıqları ədalətsiz müharibənin və ölkəni bürümüş hərc-mərcliyin ağrı-acıları Azərbaycan ailəsinin həyatından izsiz keçmədi. Yenidən ağır bir dərdlə üz-üzə dayanan Azərbaycan ailəsinin ünvanına qara xəbərlər gəldi. Onlar bu ağır və ədalətsiz savaşda torpaq və övlad itkisi ilə üzləşdilər. Dünyanın ən xoş sözünə, tərifinə, təltifinə layiq olan Azərbaycan ailəsi bədnam qonşularımızın törətdiyi vəhşiliklər nəticəsində qaçqın və məcburi köçkünə, didərginə çevrildi. Zülmlə, min əziyyətlə tikib qurduqları xanimanları itirərək çadırlarda, yataqxanalarda, vaqon və uçuq komalarda məskunlaşdılar.

Heydər Əliyevin Azərbaycan ailəsinin, xüsusilə də qadınların hüquqlarının qorunmasını, azadlıq arzularının təminatçısı olmasını bir fakt da təsdiqləyir. Bu, 1995-ci ildə ulu öndərin imzaladığı fərmana əsasən, BMT-nin "Qadınlara qarşı hər cür ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"ya Azərbaycanın qoşulmasıdır. Heydər Əliyev Azərbaycan ailəsinin qayğıkeşi, himayədarı idi. 1998-ci ildə ümummilli liderin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında sərəncam imzalandı. Bu komitənin yaradılması, həyatın zərurəti idi. Ölkə tərəqqi etdikcə, qadınların fəaliyyət miqyası genişləndikcə ailələrdə müəyyən problemlərin olması labüddür. Bu səbəbdən də komitənin fəaliyyətini daha da genişləndirmək, işinin istiqamətini dürüstləşdirmək üçün Prezident İlham Əliyevin 2006-cı ildə imzaladığı sərəncama əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan ailəsinin qayğıları dövlət başçısının daim diqqətində olan prioritet məsələlərdəndir. Bəllidir ki, Prezident İlham Əliyevin bu sahədə apardığı siyasət ümummilli liderin bünövrəsini qoyduğu, memarı olduğu siyasətin üzərində qurulub və davam etdirilir. Dünyanın bir çox yerində olduğu kimi, bizdə də bu sahədə müəyyən problemlər mövcuddur. Fərəhlənirik ki, Azərbaycan ailəsində olan problemlər dünya ölkələrində olduğu qədər ciddi və qorxulu deyildir. Bu gün dünyada qadınlara qarşı yönəlmiş zorakılığın qarşısının alınması ciddi problemdir. Biz bir millət olaraq dədə-babadan ailənin müqəddəsliyinə Quran ayəsi kimi yanaşmışıq. Həmişə fikirləşmişik ki, cəmiyyətdə hansısa bir problemi azaltmaq istəyiriksə, bunun kökünü tapmaq üçün hər bir işi ailədən düzüb-qoşmalıyıq. Beşikdən başlayaraq bütövlükdə demoqrafik vəziyyətin tənzimlənməsinə qədər hər bir proses diqqət mərkəzində olmalıdır.

Bakıda Azərbaycan qadınının azadlıq rəmzi olan məşhur bir heykəl var. Çadrasını başından atan bu qadın, sanki, qara fikirlərə, nadanlığa meydan oxuyaraq üzünü işıqlı səhərlərə, xoş gələcəyə tutub. Bu, azad Azərbaycan qadınının abidəsidir. Savadsızlığın, avamlığın, geriliyin hökm sürdüyü zamanlarda millətin aydın fikirli, işıqlı insanları, ziyalıları xalqı maarifləndirmək üçün ilk növbədə çalışırdılar ki, bu ləyaqətli missiyanı yerinə yetirmək üçün qadınlar mütləq təhsil alsınlar. Bunun üçün də hər cür mübarizə yoluna qədəm atırdılar. Gah qəzet, jurnal çap edirdilər, gah məktəb açırdılar, gah teatr "çıxardırdılar", gah da özgə millətin ziyalı xanımı ilə evlənirdilər ki, bəlkə bizimkilərin gözləri açılsın.

Azərbaycanda qızlar üçün məktəb açılmasının ilk təşəbbüskarı görkəmli maarifçi Cəlil Məmmədquluzadə olub. O, 1893-cü ildə Nehrəm məktəbində müdir işləyəndə qızlar sinfi açıb. Bu cəsarətli işin davamı olaraq bir il sonra Şəkidə də qızlar sinfi açılıb. 1901-ci ildə isə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə Bakıda ilk müsəlman qız məktəbi açılıb. Həmin dövrdə Tiflisdə də Azərbaycan qız məktəbinin açılmasına təşəbbüs göstərilmişdi. Diqqətçəkən budur ki, məktəbi açmağı qarşılarına məqsəd qoyan Tiflis qız gimnaziyasını bitirmiş 3 müsəlman xanım olub. Bakıda qızlar üçün məktəb açılmamışdan çox əvvəl, hələ 1850-ci ildə qədim oğuz yurdu İrəvanda müsəlman qızlar məktəbi fəaliyyət göstərirdi. Bu fakt özü maraqlıdır.

Azərbaycanın bir sıra bölgələrində qadın xeyriyyə cəmiyyətləri fəaliyyət göstərərək qızların təhsilə cəlb olunmasına kömək edirdilər. Bu işdə milyonçuların xanımları xüsusi fəallıq göstərirdilər. Murtuza Muxtarovun xanım Liza Muxtarova zadəgan ailəsində böyüdüyündən və mükəmməl təhsil gördüyündən Azərbaycanın maarifpərvər xanımları ilə birlikdə çalışaraq qızların savadlanmasına səy göstərirdi. Ən nümunəvi qadın ocaqlarından birinin də yaradıcısı məhz o olmuşdu.

Xarici ölkədə ilk ali təhsil alan qadın Şövkət Məmmədova olmuşdur. Onun Milanda peşəkar musiqi təhsili almasına maddi dəstəyi Hacı Zeynalabdin Tağıyev boynuna götürmüşdü. Azərbaycanın ilk maarifpərvər qadınlarından biri də Mina xanım Talışinskaya olub. Xanımların maariflənməsi yolunda çox fədakarlıq göstərmiş bu xanım, təəssüf ki, az yaşayıb. Musiqi təhsili almış ilk pianoçu qadınlardan biri Nəzirə Yaqubova olub.

Həsən bəy Zərdabinin və onun ömür-gün yoldaşı Hənifə xanımın Azərbaycan qadınlarının maariflənməsində əvəzsiz xidmətləri olub. 1901-cu ildə Bakıda birinci rus-tatar qız məktəbi açılıb. Hənifə xanım həmin məktəbin rəhbəri, həm də pedaqoji işçi kimi fəaliyyət göstərib. Qızların savadlanmasında müəllim Səkinə Axundzadə həm də ilk azərbaycanlı yazıçı qadındır.

Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir 1912-ci ildə Tiflisdə keçirilən pambıqçılıqla bağlı qurultayda məruzə ilə çıxış edən ilk azərbaycanlı qadın idi. Hətta bu qurultayda Həmidə xanımın çıxışına mane olmaq istəyən bəzi qüvvələr onun əvəzinə erməni qadının məruzə etməsini istəyiblər. Lakin Həmidə xanım bu cəhdlərə baxmayaraq, öz məruzəsini edir. Onun pambıqçılıqla bağlı məruzəsi o qədər mükəmməl, səlis, məntiqli və geniş olur ki, erməni qadının çıxışını ləğv edirlər. Bax budur Azərbaycan qadının qüdrəti, uğuru,fədakarlığı... Bir müddət Mirzə Cəlillə bərabər İranda yaşamağa məcbur olduqda Həmidə xanım Təbrizdə qadınlar üçün qız məktəbi açmaq fikrinə də düşüb. Nəriman Nərimanovun köməyi ilə geriyə çağırıldıqları üçün bu iş yarımçıq qalıb.

Azərbaycan mədəniyyəti tarixində özünəməxsus yeri olan Şəfiqə xanım Əfəndizadə həm ilk maarifpərvər-pedaqoq, həm də publisist yazıçı kimi fəaliyyət göstərib. 1910-cu ildə Bakıda ikinci rus-tatar qız məktəbi açılanda Şəfiqə xanım orada dərs deyib. İlk maarivpərvər xanımlardan sayılan Xədicə xanım Ağayeva 1902-ci ildə Daşkənddə qızlar gimnaziyasını bitirmişdi. Uzun müddət Bakıda pedaqoji fəaliyyətlə məşğul olub. Qadınların savadlanmasında kişilərlə bərabər Azərbaycan xanımlarının özləri daha çox fədakarlıq göstəriblər: Xurşud Ağayeva, Rəhilə Hacıbababəyova, Süreyya Vəlibəyova, Zəhra Ağayeva, Tamara Axundova və başqaları.



1910-cu ildə Bakıda üçüncü rus-tatar qız məktəbi açıldı. Eyni zamanda təkcə Bakıda deyil, İrəvanda, Naxçıvanda, Gəncədə, Şamaxıda belə məktəblərin sayı getdikcə artırdı. Xalq Cümhuriyyətinin 23 aylıq hakimiyyəti dövründə də qadınların təhsilinə diqqət verilirdi. Təəssüf ki, Sovet Rusiyasının Azərbaycanı işğal etməsi ilə əlaqədar baş alıb gedən tutha-tutlar, repressiyalar bu ziyalıların qətli, sürgünü ilə nəticələndi. Təqiyələrdən, təqiblərdən qurtulmuşlar isə dünyanın müxtəlif ölkələrinə səpələndilər. Biz kökümüzdən üzülərək suya salınmış şitil kimi böyüdük. Bizə elə gəldi ki, Azərbaycan qadınına azadlığı və təhsili ancaq sovet hökuməti verib.

Aparılan statistik hesablamalar göstərir ki, bütün müsəlman dövlətləri arasında ziyalı xanımların sayına görə Azərbaycan birinci yerdə durur. Umnisə Musabəyova, Sona Axundova, Məhbubə Mahmudbəyova, Zərifə Əliyeva, Sara Aşurbəyli, Leyla Məmmədbəyova, Əzizə Cəfərzadə, Mədinə Gülgün, İzzət Orucova, Nigar Rəfibəyli, Validə Tutayuq, Püstəxanım Əzizbəyova, Səidə İmanzadə, Şükufə Mirzəyeva, Əzizə Məmmədova, Sona Hacıyeva, Fatma Qədri, Hökumə Qurbanova, Mirvarid Dilbazi, Zəhra Quliyeva kimi alim, həkim, pedaqoq, təyyarəçi, şair, yazıçı və mədəniyyət xadimləri qürur duyduğumuz xanımların bir qismidir.

Ümummilli lider Heydər Əliyev 1974-cü ildə deyirdi: "Həyatın özü, bizim təcrübəmiz sübut etmişdir ki, qadınların başçılıq etdikləri müəssisələr, kolxozlar, idarələr bir qayda olaraq qabaqcıllar sırasında gedir. Bunlarda səliqə-sahman daha çox olur, əmək intizamının pozulması halları da azdır". Bəlkə də elə buna görə qadınların müxtəlif vəzifələrə irəli çəkilməsinə daha çox diqqət verilirdi. Ali məktəb rektoru, zavod, fabrik direktoru, baş həkim, deputat, nazir və digər vəzifələrdə çalışan xanımlar öz vəzifələrinin öhdəsindən ləyaqətlə gəlirlər. Heydər Əliyevin uzaqgörən siyasətinin ifadəsi olaraq, Azərbaycan qadınının maddi və mənəvi problemlərinin bütün tərəfinə işıq salınırdı.

Ötən əsrin sonlarında qadınlarımız üçrəngli bayrağımızın yenidən qaldırılması üçün hürriyyət uğrunda savaşa qalxdılar. Həcər qeyrətli, Nüşabə qüdrətli, Nigar düşüncəli qızlarımız Vətən torpağı uğrunda döyüşə atıldılar. Azərbaycanın Milli Qəhrəmanları sırasına onların da adı yazıldı: Salatın Əsgərova, Gültəkin Əsgərova. Düşmən əlinə keçməmək üçün özlərini qaya başından uçuruma atan kəlbəcərli xanımların ucalığı və böyüklüyü qarşısında söz tapa bilmirsən.

Bu gün Azərbaycan qadınının səsi beynəlxalq aləmdən –Avropa Şurasından gəlir. Azərbayan qadını zəkası ilə diqqət çəkdiyi kimi biləyinin gücü ilə də qalib gəlməyi bacarır. Müxtəlif beynəlxaql idman yarışlarında, olimpiadalarda üçrəngli bayrağımızı yüksəklərə qaldırır, qızıl medallar qazanır. Azərbaycan qadını uzaq Pakistanda müsəlman qızları üçün məktəb tikdirir. UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri kimi şərəfə nail olur. Qadın ana, qadın bacı, qadın bir evin işığı, isti çörəyi, səliqə-sahmanıdır. Sülh elçisi, sevgi rəmzidir. Ona dəyər vermək,onu qorumaq bəşəriyyətin işıqlı gələcəyini təmin etməkdir. Xoşbəxt qadın xoşbəxt həyatın özü, səadətin özülüdür.

***Ülviyyə VAHİDQIZI,***
***"Xalq qəzeti"***

***Məqalə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan qadınlarına seçki hüququ verilməsinin 100 illiyi münasibəti ilə keçirdiyi müsabiqəyə təqdim edilir.***